# MƏNƏVİYYAT UĞRUNDA MÜBARİZƏLƏRDƏ

*Cəmiyyətimizdə mənəvi ölçülər daraldıqca, dəyərlərə etinasızlıq artdıqca, pisliklər çoxaldıqca biz Qulu Məhərrəmli kimi dürüst və vicdanlı adamların varlığını daha aydın hiss edirik. Milli əxlaqımız məhz belə şəxsiyyətlərin hesabına öz varlığını qorumaqdadır.*

**Qəzənfər Kazımov**
**professor, əməkdar elm xadimi**

Yaşadığımız bu dünyada Qulu Məhərrəmli kimi mükəmməl insanların mövcudluğunu düşünəndə həmişə adamın vücudunu xoş hisslər bürüyür. Düşünürəm ki, nə yaxşı sayları az da olsa, belə insanlar var və mən onlarla məmnuniyyətlə görüşür, münasibət qurur və dostluq edirəm. Bu xoş düşüncə ondan qaynaqlanır ki, ölkədə nüfuzlu ziyalı və elm adamı kimi tanınan Qulu müəllim haqq adamıdır, həqiqi Vətən övladıdır, canı Vətən sevgisi ilə doludur, vicdan və qeyrət mücəssəməsidir.

Cəmiyyətimizdə mənəvi ölçülər daraldıqca, dəyərlərə etinasızlıq artdıqca, pisliklər çoxaldıqca biz Q.Məhərrəmli kimi dürüst və vicdanlı adamların varlığını daha aydın hiss edirik. İnanmıram ki, keçmişdə bu cür ola - indi bu torpaqda yaşayıb bu torpağa xain gözlə baxan, onu dartıb-dağıtmağa çalışan, onun yeraltı və yerüstü sərvətləri bir yana, imkan düşsə, daşını, torpağını da gəmirib yeməyə, çiyinlərində xaricə daşımağa çalışan vətənsiz insanlar var. Bələləri üçün min illərlə babalarımızın öz canı-qanı bahasına qoruyub saxladıqları bu torpaqların da, bu torpaqlarda yetişən böyük tarixi şəxsiyyətlərin heç bir əhəmiyyəti yoxdur. Torpaqlarımız düşmən əlində, ölkəmiz çətinliklər içindədir, amma bu şəraitin özündə belə qeyri-insani hərəkətləri, tamahlarının gücü ilə düşmənə kömək edənlər var. Halbuki zəmanə bizdən qeyrət tələb edir.

Bax bu mənada Qulu müəllim torpağını, yaralı Vətənini, babalarını sevən, tarixini yaşadan adamdır, öz qələmi və çıxışları - bütün varlığı ilə bu müqəddəs torpaqlarımızı düşməndən xilas etmək uğrunda çarpışan adamlardandır. Bütün varlığı ilə bu xalqın mənəvi yüksəlişi, ruhunun diri qalması uğrunda mübarizə yollarındadır.

Biz naqis adamların getdikcə çoxaldığı pis zəmanədə yaşayırıq. Xalqımızın şərəfli keçmişinə daş atanlar var, onun min illərlə davam edib gəlməkdə olan saf əxlaqını korlamağa, düşüncəsini pozmağa, dəyərlərini tapdalamağa çalışanlar var. Bu yolla xalqımızı məhv etməyə çalışan daxili və xarici düşmənlər var. Dünyanın bu vaxtında feodal əsarəti, tayfaçılığı yayanlar var. Bütün bunlara qarşı müqavimət çox vacibdir. Fikrimcə, bu xalq həmin naqisliklərə qarşı durub mənəviyyat davası aparan Qulu Məhərrəmli kimi saf, vicdanlı, Vətənin tarixini, onun böyük adamlarını sevən, qorumağa çalışan, onlarla fəxr edən adamların çiyinləri üzərində bərqərardır. Milli əxlaqımız məhz Q.Məhərrəmli kimi şəxsiyyətlərin hesabına öz varlığını qorumaqdadır.

Zəmanəmizin ən dəhşətli hadisəsi, elə vətən üçün də ən təhlükəli olanı az-çox savad almış insanların mənəviyyatsızlığıdır. Həmin mənəviyyatsızlıq azarına tutulmuş o adamlar gözləri ilə gördüyü, aydın şəkildə dərk etdiyi faciəvi, xalq və onun gələcəyi üçün təhlükəli olan tendensiyalara göz yumması, hətta onları müdafiə etməsi, onlara bir növ bəraət qazandırmağa çalışması, bu yolla qarnını doyurması, arpasını artırmasıdır. İkiüzlülükdür, riyakarlıqdır, xəyanətdir, satqınlıqdır, alçalmaq və alçaqlıqdır belə davranış. Necə ola bilər ki, sən insan kimi doğulasan, amma insan kimi yaşamayasan? Rəzalət içində ömür sürəsən. İnsani keyfiyyətləri müəyyən təmənna ilə dəyişəsən.

Sağ olsun Qulu müəllim kimilər. Onlar olmasaydı, cəmiyyət bir qəpiyə dəyməzdi, insanlıq puç olub gedərdi. Unudulmaz tələbə yoldaşım Əjdər Ağayev bir vaxtlar Qulu müəllimdə bu yüksək mənəvi-əxlaqi keyfiyyətləri gözəl duymuş və demişdir: "Mənim üçün bu ad, onun doğurduğu assosiasiya çox doğmadır, sevdiyim və dəyər verdiyim imzadır. Çünki bu adın dillərdə dolaşan bir parlaq vətəndaşlıq çəkisi, insanilik şöhrəti, bu imzanın mahir jurnalist, dəyərli tədqiqatçı-alim siqləti vardır. Qulu Məhərrəmli haqsevər, yurdsevər, sənətsevər ali insan, kamil şəxsiyyətdir. Ona görə də xalqın sevdiyi görkəmli ziyalı kimi tanınır".



Qulu yalnız böyük ürəyi ilə deyil, öz işi, əməli, yaradıcılığı ilə də nümunədir. Deyə bilərik ki, təbiət Qulu müəllimi həqiqi bir ekran adamı kimi dünyaya gətirib. Telejurnalist kimi daim öz nitqi, yüksək təfəkkürü, məntiqi ilə seçilib. Qulu müəllim televiziya tədqiqatçısıdır, həm də hazırlıqlı, intellektual, həqiqi mənada peşəkar tənqidçi və tədqiqatçıdır. Hazırkı dövrdə bu sahədə Qulu müəllimi əvəz edə biləcək ikinci bir adam tanımıram. Qulu müəllim heç bir qərəz güdmədən, etik qaydalara müvafiq şəkildə öz sözünü demişdir, deyir və bu ixtiyarı heç kəs onun əlindən ala bilməz. Ustadı Şirməmməd Hüseynov yaxşı demişdir: "Görkəmli jurnalist, istedadlı alim Qulu Məhərrəmlini insanlar obyektivliyinə, ləyaqətli və vicdanlı söz sahibi olmasına görə sevir və qiymətləndirirlər".

Daim zəhmət və istedadı ilə fərqlənib. Gənc telejurnalistlər nəslinin yetişməsində böyük əməyi var. Bu sahədə onlarca vəsaitin, "Jurnalistikanın əsasları", "Radio jurnalistikası: təməl biliklər", "Televiziya jurnalistikasının əsasları" kimi dərsliklərin müəllifidir. Televiziyanın müxtəlif baş redaksiyalarında müxbir, redaktor, böyük redaktor, şərhçi, şöbə müdiri, proqram rəhbəri, baş redaktor, siyasi icmalçı və departament direktoru vəzifələrində çalışıb. AzTV-nin əsas xəbər proqramlarının, neçə-neçə başqa verilişlərin aparıcısı olub. Uzun illər Azərbaycan televiziyasının siyasi icmalçısı olub. "Səhər" musiqi-informasiya proqramını yaradıb və uzun illər ona rəhbərlik edib. 20-yə yaxın sənədli televiziya filminin ssenari müəllifidir. Bu filmlərin bəziləri beynəlxalq festival və müsabiqələrdə nümayiş etdirilib. Bütün bunlar Qulu müəllimin 65 illik ömründə cəmiyyət üçün, cəmiyyətin maariflənməsi üçün nə qədər ağır yük daşımış olduğunu, onun böyük mənəvi-siyasi əməyini aydın göstərir.

Qulu müəllim görkəmli dövlət və mədəniyyət xadimləri ilə birlikdə 60-a yaxın xarici ölkədə Azərbaycan jurnalistika mədəniyyətinin təmsilçisi olmuşdur. Nüfuzlu beynəlxalq toplantılarda, media forumlarında dəfələrlə milli jurnalistikamızı və jurnalistika elmimizi təmsil etmişdir. "Jurnalistikanın inkişafına yardım mərkəzi" adlı qeyri-hökumət təşkilatının rəhbəridir. Jurnalistika sahəsində yüksək mükafatlara ("Qızıl qələm", "H.B.Zərdabi", "Media açarı" və s.) layiq görülmüşdür. Adamın heç ağlına gəlmir ki, Qulu müəllim bu işləri hansısa mükafat və ya "sağ ol" naminə edir. O, mükafatını öz vicdanından alan insanlardandır.

İstedadlı natiq, populyar bir telejurnalist olmaqla yanaşı, Qulu Məhərrəmli həm də görkəmli alim və tədqiqatçıdır. 80-ci illərin əvvəllərindən ardıcıl olaraq yeni cığır açdığı jurnalistika sahəsində elmi araşdırmalarla məşğuldur. 1989-cu ildə "Radiodramaturgiya dili" mövzusunda namizədlik, 2004-cü ildə "Televiziya dili: funksiya və struktur" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Jurnalistika üzrə ölkədə ilk elmlər doktoru sayılır. Professordur. Mənim dəqiq bilmədiyim neçə nəslin müəllimi olub. Nə qədər kadr yetişdirib. Elmi araşdırmalarında jurnalistikanın və medianın ümumi nəzəriyyəsi, televiziya və radionun tarixi, aktual elmi-nəzəri problemləri, o cümlədən ekran-efirin mürəkkəb dil sisteminin öyrənilməsi sahəsində böyük iş görüb. 30-dan artıq kitabın, bir neçə monoqrafiya, dərslik və dərs vəsaitinin, izahlı lüğətlərin müəllifidir.

Bütün bunlarla yanaşı, Qulu müəllimi insanlara sevdirən başqa çox mühüm bir keyfiyyəti də var - onun yüksək mənəvi-insani keyfiyyətləri, xoş və gülər üzü, xeyirxah təbiəti. Elə bil, tanrı onu insanlara yaxşılıq üçün yaradıb. İnsanlara münasibətində son dərəcə səmimi olmaqla yanaşı, həm də yüksək etika sahibidir. Məncə, onun bütün şüurlu ömrü ictimai yaramazlıqlarla mübarizədə keçib.

Qulu müəllim indi yaşının və yaradıcılığının gözəl çağındadır. Mən ona arzularına uyğun dünya, ailəsinə, övladlarına və şəxsən özünə gözəlliklər içərisində sağlıq dolu ömür arzulayıram.

***26.10.2019***

*Qəzənfər KAZIMOV,*
*filologiya elmləri doktoru, professor*
*Əməkdar elm xadimi*